Ədəbiyyat QƏZETİ

26 sentyabr 2025-ci il 29



# Murad BAYKAL

Amansız ölüm qələm yoldaşımız Murad Baykalı aramızdan apardı.

Murad Ələkbər oğlu Abdulov 1949-cu il sentyabrın 27-də Zaqatalada anadan olmuşdur. Burada 1 saylı orta məktəbi bitirmişdir. 1966-1971-ci illərdə Azərbaycan Texniki Universitetinin inşaat fakültəsində təhsil almışdır. 1971-1991-ci illərdə komsomol və partiya sistemində məsul vəzifələrdə çalışmışdır. 1991-1992-ci illərdə Azteleradioya rəhbərlik etmişdir.

İlk qələm təcrübəsi 1966-cı ildə Məmməd Murad imzası ilə mətbuatda dərc edilib. 1973-cü ildə "Yerin görünür" adlı kitabı "Gənclik" nəşriyyatında işıq üzü görüb. "Gəncliyin ulduzları", "Köç tonqalı", "Gülü bənövşə dağlar", "Ürək niyə soldadır?", "Çin Sakit okeanın sirridir", "İnsan insana mələkdən yaxındır", "Yerusəlim həqiqətin ay işığıdır", "Avrasiyanı nizamlayan" və s. kitabları çapdan çıxıb. Pyesləri teatrlarda və televiziyada səhnələşdirilib.

İstedadlı qələm yoldaşımız, səmimi insan Murad Baykalın işıqlı xatirəsi qəlbimizdə yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**